# TAĞI ŞAHBAZİ SİMURĞ YARADICILIĞINDA PEŞƏ VƏ PEŞƏYƏ MARAQ ROLUNUN STİMULLAŞDIRILMASI YOLLARI



**Pərvin Cəfərova,**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*e-mail: cafarova.p@mail.ru*

**UOT**: 37.01

**Xülasə.** *Məqalədə repressiya qurbanı Tağı Şahbazi Simurğ yaradıcılığında peşə və peşəyə maraq rolunun stimullaşdırılması yollarından bəhs olunur. Qeyd edilir ki, oyun uşaqların aktiv fəaliyyətinin formalaşdırılmasında ən mühüm tərbiyə yollarından biridir. Əmək tərbiyəsi əməksevərlik, əməyə, əmək adamlarına hörmət, peşələr haqqında təsəvvürlərin yaranmasına kömək məqsədi daşımalıdır. Həmçinin əmək uşaqlarda zəhmətsevərliklə yanaşı, dözümlülük, cəsarət, yoldaşlıq, dostluq, qayğıkeşlik, xeyirxahlıq, qeyrətlilik və vətənpərvərlik kimi əxlaqi keyfiyyətlər formalaşdırmalıdır. Bu zaman ümumtəhsil məktəblərində müəllim əmək təlimi zamanı daha çox öyrənmə motivlərinə üstünlük verməlidir.*

***Açar sözlər:*** *repressiya qurbanı Tağı Şahbazi Simurğ, müəllim və şagird, peşə və peşəyə maraq, mütəhərrik oyun və oyuncaqlar, şəxsiyyətin formalaşması.*
***Key words:*** *victim of repression Tagi Shahbazi Simurg, teacher and student, profession and interest in the profession, mobile games and toys, formation of personality.*
***Ключевые слова:*** *репрессированный Таги Шахбази Симург, учитель и ученик, профессия и интерес к професси, подвижные игры и игрушки, формирование личности.*

Oyun uşaqların aktiv fəaliyyət formasıdır. Uşaqlar istər planlı və mütəşəkkil şəkildə, istərsə də asudə vaxtda təşkil olunan oyunlar vasitəsilə hesablamanı bacarır, rəqəm və hərfləri tanıyır, müxtəlif növ stolüstü oyunları və s. mənimsəyirlər. Hələ vaxtilə görkəmli pedaqoq-alim A.S.Makarenko oyunu intizamı möhkəmlədən mühüm vasitə hesab edərək yazırdı: "İntizamı möhkəmlətmək üçün müxtəlif üsullar vardır… Mən oyunu ən mühüm tərbiyə yollarından biri hesab edirəm. Uşaq kollektivinin həyatında ciddi, məsul və işgüzar oyun böyük yer tutmalıdır".

Uşaq ruhunun bilicisi olan repressiya qurbanı Tağı Şahbazi Simurğa görə, uşağın düzgün fiziki inkişafı uşaqların müxtəlif növ fəaliyyətinə uyğun şəraitin yaradılması ilə təmin olunmalıdır. Həmçinin uşaqları öz gücünə müvafiq olmayan yüklü, ağır şeylərdə gücünü sınamasına yol verməmək və bunun gələcəkdə fəsadlar yaşadacağını izah etməyin lazım olduğunu nəzərə çatdırır.

Pedaqoji dövrləşmənin əsasını bir tərəfdən fiziki və psixi inkişaf mərhələsi, digər tərəfdən isə tərbiyə dövrü təşkil edir. Yaş xüsusiyyətlərinin nəzərə alınması pedaqogikanın əsas prinsiplərindən biridir. Y.A.Komenski təlim-tərbiyə işində uşaqların yaş xüsusiyyətlərinin ciddi nəzərə alınmasına israr edirdi. Məlum olduğu kimi, o, təbiətəuyğunluq prinsipini irəli sürmüş və əsaslandırmışdır: təlim və tərbiyə inkişafın yaş dövr-

larına uyğun olmalıdır. Belə ki, təbiətdə hər şey öz vaxtında baş verir, eləcə də tərbiyədə hər şey öz qaydası ilə öz vaxtında və ardıcıl surətdə getməlidir. Bu mənada, Tağı Şahbazi Simurğ Komenskinin ideyasını rəhbər tutaraq, müəllimlərdən yaş xüsusiyyətlərinin nəzərə alınmasına istinad edərək yazır ki, tədris yükü tənzimlənməli, müxtəlif əmək növləri üzrə iş qurulmalı, uşağın inkişafı üçün daha əhəmiyyətli əmək-istirahət gün rejimi tərtib edilməlidir.

Yaş xüsusiyyətlərinin nəzərə alınmasında yeni hadisə olan akselerasiyaya diqqətin yetirilməsi vacibdir. Akselerasiya bütün dünyada geniş yayılmışdır. O uşaq və yeniyetməlik yaşlarında fiziki və qismən psixi inkişafın sürətli inkişafıdır. Akselerasiya nəticəsində orqanizmin fizioloji yetkinliyi əqli, psixi və sosial inkişafı üstələyir.

T.Ş.Simurğ ümumiyyətlə, məktəblərdə əqli inkişafın artmasını oyunda görürdü. Həmçinin haqlı olaraq uşaqların mütəhərrik oyun və oyuncaqlarının bağçadan ibtidai məktəbə daşınmasını təklif kimi irəli sürürdü. Simurğ qeyd edir ki, əmək fəaliyyəti maraqlı olmalıdır. Maraqlı olmalıdır ki, onu həyata keçirəndə uşaq məmnunluq hissi duysun, onda gözəl emosiyalar yaransın. Belə olan halda uşaqlarda səliqəlilik, əməksevərlik, zəhmət adamlarına hörmət, insan əməyinin nəticələrinə ehtiram göstərmək kimi keyfiyyətlər tərbiyə olunur. Görkəmli pedaqoq "İbtidai məktəbin vəzifələri" haqqında olan məqaləsində yazır: "İbtidai məktəbdə hər gün 3-4 və ya 5 saat ərzində yalnız dərs oxudulursa, buna pedaqoji nöqteyi-nəzərindən etiraz edilir. Burada dərslər arasında oyun və oyuncaqlardan istifadə olunmalıdır, zira bütün dərs saatlarını kitab və yazı işlərinə sərf edəcək olursaq, cocuq yorulur, fikri və zehni dolaşır. Bu, müşahidə edilmiş qədim bir həqiqətdir. Buna görə də ibtidai məktəb cocuğu oxuyarkən oyundan dəxi məhrum edilə bilməz. Lakin oyun məsələsinə gəldikdə, ibtidai məktəbdə hansı oyunların icra ediləcəyi işi nəzər-diqqətimizi cəlb etməlidir. Oyun və oyuncaqlar yalnız əylənmək üçün təklif olunmayır. İbtidai məktəb məişətində tətbiq ediləcək oyunlara bir neçə tələblər təqdim olunur ki, onsuz oyunlar əhəmiyyətini itirmiş olurlar" [1].

Müxtəlif təlim və tərbiyə vəzifələrinin həyata keçirilməsində didaktik oyunlardan təlim metodu kimi geniş istifadə olunur. İbtidai siniflərdə toplanmış təcrübəyə əsaslanaraq təlim oyunlarının əhəmiyyəti barədə müəyyən fikirlər söyləmək olar:

*– uşaqlar didaktik oyun prosesində real həyati şəraitlərdə davranmaq vərdişləri əldə edirlər;*

*– oyunlar şagirdlərə imkan verir ki, problemlərə passiv münasibət bəsləməsinlər, onu özləri həll etsinlər;*

*– oyunlar bilik və bacarıqların tədris şəraitindən real şəraitə keçməsinə imkan verir;*

*– oyunlar şagirdləri, hətta xoşlamadıqları təlim tapşırıqlarının icrasına cəlb edir.*

Qeyd etmək lazımdır ki, didaktik oyunlara həddindən artıq aludə olmaq təlim prosesinə mənfi təsir göstərə bilər. Ona görə də ibtidai sinif müəllimləri didaktik oyunların planlaşdırılması və keçirilməsində müəyyən tələblərə əməl etməlidirlər:

*– didaktik oyunlar təlim-tərbiyə prosesinin məntiqindən irəli gəlməli, süni xarakter daşımamalıdır;*

*– oyun cəlbedici, yaddaqalan olmalı və obrazlı adlandırılmalıdır;*

*– həqiqi oyun elementlərindən istifadə etməklə təşkil olunmalıdır;*

*– müəyyən qaydalara uyğun aparılmalıdır;*

*– şifahi xalq yaradıcılığı nümunələri (yanıltmac, tapmaca, atalar sözü, sanamalar, düzgülər, təmsil, şeir və s.) xor ifaları ilə müşayiət olunmalıdır. Belə olduqda onlar daha yaxşı qavranılır.*

Müəllimin hərəkətləri, cəlbedici sözləri, müraciətləri, xoş manerası (münasibəti) da didaktik oyunların təlim və tərbiyəvi təsirini artırır. Əgər oyundan sonra uşaqlar gülmürlərsə, əhval-ruhiyyələri, emosiyaları yüksəlmirsə, deməli, onlar oyundan həzz almamış, oyun baş tutmamışdır.

Beləliklə, praktiki metodlarsız məktəb təliminin problemlərini həll etmək olmaz. Onlar müxtəlif tədris tapşırıqları, təcrübi işlər, didaktik oyunlar və s. vasitəsilə biliklərin möhkəmləndirilməsi, təkrarı, ümumiləşdirici, əşya dərsləri, ekskursiya prosesində həyata keçirilir.

Gəldiyimiz bu kimi qənaətlərə isə Simurğ bir başqa cür yanaşır. O yazır ki, uşaqlar üçün təşkil edilən oyun maraqlı olmalıdır. Yəni oyun özlüyündə uşağı həvəsləndirməlidir. Digər tərəfdən uşaqları məşğul edəcək oyun onların yaşlarına "mütabiq olduğu kimi, zorlarına dəxi münasib olmalıdır. Burada cocuqların zirəkliyinə bais olan və bədənlərinə qanın dövr etməsinə, həm də nəfəs fəaliyyətinə xidmət edən oyunlara ayrıca diqqət verilir. Bundan başqa, cocuqlarda təşəbbüs oya-

dan, onlara ruh verən, əvhallarını xoşnud edən oyunlar dəxi var ki, xüsusi surətdə tövsiyə oluna bilər. Qaldı ki, bir-birlərinə kafil olmaq (məsul olmaq – P.C.) hissini cocuqlara bəxş edən oyunları biz təkrar təklif edirik.

Hazırda cocuq bağçalarında icra edilən bütün mütəhərrik oyun və oyuncaqlar ibtidai məktəbə daxil edilməlidir. Qaçmaq, yürümək, dırmaşmaq, tullanmaq kimi hərəkətləri havi edən (məsul olan – P.C.) oyunlar ibtidai məktəbdə başlıca mövqe tutmalıdır. Bundan əlavə, nişanə atmaq, su üzərində üzmək və qeyri bu kimi mənfəətli işlər dəxi oyunlar sırasına daxil edilməlidir. Təəssüf ki, məktəb şəraiti bu axırıncıların vücuda gətirilməsinə yol vermir" [1].

Kiçikyaşlı məktəblilərin mənəvi tərbiyəsi onların əxlaqi şüurunun formalaşmasına kömək edir. Əmək tərbiyəsi əməksevərlik, əməyə, əmək adamlarına hörmət, peşələr haqqında təsəvvürlərin yaranmasına kömək məqsədi daşıyır. Uşaqların ailədə əməyini yalnız ev tapşırıqları üzərində çalışması ilə məhdudlaşdırmaq düzgün deyil. Bununla yanaşı, hər bir uşaq ailənin məişət və təsərrüfat əməyində də iştirak etməlidir. Məktəblinin ailədə əmək tərbiyəsi onun inkişafında və həyata, əmək fəaliyyətinə hazırlanmasında mühüm rol oynayır. Görkəmli pedaqoq kiçikyaşlı məktəblilərin mövcud şəraitdə əməyə alışqanlığını aşağıdakı şəkildə ifadə edir:

"...Keçəlim zəhmət işlərinə. Əvvəlcə bunu nəzərə almalıdır ki, ibtidai məktəbdə zəhmət tətbiq edilsin demək, o deyil ki, məktəb tamamilə bir emalatxana şəkli alsın. Vahid zəhmət məktəbinin birinci (ibtidai) mərtəbəsindən zəhmətin yalnız bəzi növləri məramnaməyə daxil oluna bilər ki, onlar da aşağıda söylədiyimiz işlərdən ibarətdir:

*– ziraətçilik ki, bizim ibtidai məktəbdə bostançılıq və bağçılıqdan ibarət olmalıdır;*

*– maldarlıq, bu da bizcə xırda ev heyvanlarını saxlamaq və böyütmək deməkdir;*

*– evdarlıq işi ki, evi təmiz saxlamaq və ehtiyaclarımı rəf etməyə çalışmaqdır;*

*– ip və sapdan toxumaq və hörmək;*

*– ağacdan cürbəcür şeylər qayırmaq;*

*– elektrik çəkmək ki, bu da doğrudan-doğruya yalnız böyük qruplarda (yuxarı siniflərdə – P.C.) öyrədilir" [1].*

Tağı Şahbazi uşaq şəxsiyyətinin formalaşmasında fiziki əmək tərbiyəsinin nəzəri və təcrübi məsələlərini vəhdətdə təhlil etməyi təklif edir. Qeyd edir ki, zəhmət növlərinin hansı birinin ibtidai məktəbdə tətbiq olunması çox əhəmiyyətli məsələdir. Təbii ki, bu da başlıca məktəbdə mövcud şəraitlə bağlıdır. Demək istəyirik ki, ibtidai məktəbdə zəhmət işlərinin bu və ya o növü ilə getməsi bütün-bütünə məktəbin texniki imkanından asılıdır. Lakin burada diqqət veriləcək bir şey var isə, o da zəhmət növlərinin dərs saatlarına mane olmasıdır. Yəni zəhmət tətbiq olunarkən qeyri-dərslər dəxi öz qaydasınca getməlidir. Qaldı ki, böyük miqyasda ziraətçilik və ya toxumaq işi – bu ibtidai məktəbdə nümayiş surətində göstərilə bilər ki, o da yalnız istehsalat barəsində danışıldığı zaman bir şəkil kimi istifadə olunmalıdır.

Uşaqların yaş xüsusiyyətləri və maraqlarının nəzərə alınması ilə təşkil edilmiş əmək fəaliyyəti sevindirici və dərin hislər yaradır [2, s.135]. Əmək uşaqlarda zəhmətsevərliklə yanaşı, dözümlülük, cəsarət, yoldaşlıq, dostluq, qayğıkeşlik, xeyirxahlıq, qeyrətlilik və vətənpərvərlik kimi əxlaqi keyfiyyətlər formalaşdırır. Simurğ bu münasibətlə yazır: "Zəhmət dərsləri ibtidai məktəblərdəki cocuqlara müəyyən surətdə zəhmət tərbiyə verir ki, nəticədə təbii olaraq cocuqlar bir neçə xasiyyətləri əxz edirlər. Elə xasiyyətlər ki, onlar hər bir işçidən ötrü çox qiymətlidir.

Əcəba, zəhmət məşğələləri nəticəsində cocuqlar nə öyrənməlidir? Zəhmət saatlarından lazımi surətdə istifadə etmək üçün bunu bilmək vacibdir. Bizcə, cocuğun əxz edəcəyi xasiyyətlər bunlardan ibarət olmalıdır:

*– işə xariqüladə qüvvə sərf etməmək, yəni cocuq işə sərf edəcəyi qüvvədən qənaət etməlidir. Bacardıqca az qüvvə işlədərək, böyük nəticə almalıdır;*

*– bir işə başladıqda artıq əcələ ilə çalışmamaq (tələsməmək – P.C.);*

*– işlərkən dincəlməyi unutmamaq, yəni hər bir işdən sonra dincəlmək;*

*– işə başlamazdan lazım olan şeyləri hazırlamaq. Material tərəfindən görüləcək işi əvvəlcə təmin etməli, sonra işə başlamalıdır;*

*– çalışarkən mümkün qədər səliqəyə fikir vermək".*

Bildiyimiz kimi, özünəxidmət əməyi ilə yanaşı, məktəbəqədər və ya məktəbyaşlı uşaqların təsərrüfat-məişət əməyi, təbiətdə əmək, əl əməyi, ailədə əmək tərbiyəsinin təşkili məsələləri geniş yer tutur. Simurğa görə ibtidai məktəbdə çalışan

cocuq zəhmət dərslərinin nəticəsi olaraq söylədiyimiz qaydaları öyrənməlidir. Bundan ötrü də yeni zəhmət dərslərini aparan müəllimin üzərinə ağır vəzifə düşür. Deməli, zəhmət məşğələlərinə müəllim vaxtında diqqət verməlidir ki, cocuğa tapşıracağı işi yaşına, qüvvəsinə müvafiq olsun. Cocuğun qüvvəsindən artıq və ağır zəhmətdən vaz keçməli, biləks asanlıqla və həvəslə icra edilən zəhmət isə saxlanmalı və tətbiq olunmalıdır.

Müəllim və şagirdlər motivləri birgə əhatə edirlər. Motivlər rolunda tələbatlar və maraqlar, çalışmalar, emosiyalar, göstərişlər və ideyalar qarşılıqlı əlaqədə çıxış edir. Motivlər həmişə qarşılıqlı əlaqədədir və pedaqoji prosesdə müxtəlif, çoxlu sayda motivlər birləşir. Müəllim əmək təlimi zamanı daha çox öyrənmə motivlərinə üstünlük verməlidir. Simurğ yazır ki, hər məktəbdə zəhmət dərslərinin müvəffəqiyyətli surətdə keçilməsi lazım olan alət və karastının əldə olunmasından dəxi asılıdır. Əgər lazım gələn alət və karastı məktəb içərisində hazır olamazsa, o vaxt cocuqdan iş tələb etmək olmaz və belə məktəbdə zəhmət dərsləri məramnaməyə daxil edilə bilməz. Halbuki, bir çox məktəblərdə “alətsiz dəxi – iş bitirmək olar” – deyə cocuqları çalışmağa vadar edirlər. Bu fikir özü belə xəta nəticə verə bilər. İşə yaramaz bir alət olduğu təqdirdə də iş görülə bilməz. Demək ki, məktəblərdə, zəhmət işləri o vaxt müəyyən mövqe tuta bilər ki, zəhmət məşğuliyyətindən ötrü lazım olan yaraq, karastı və alət hazır olsun [1].

**Nəticə.** Tağı Şahbazi Simurğun əmək və əmək tərbiyəsi ilə bağlı görüşlərinə yekun vurarkən belə nəticəyə gəlirik:

*– müəllim öz işinin ustası olmaq üçün pedaqogikanı dərindən bilməlidir;*

*– uşaqların mütəhərrik oyun və oyuncaqlarının bağçadan ibtidai məktəbə daşınmasına yardımçı olmalıdır;*

*– şagirdinə əvvəl peşəkarcasına düşünməyi, sonra isə fəaliyyət göstərməyi öyrətməlidir;*

*– uşaq kollektivinin həyatında ciddi, məsul və işgüzar oyuna böyük yer ayırmalıdır;*

*– uşaqları öz gücünə müvafiq olmayan yüklü, ağır şeylərdə gücünü sınamasına yol verməməlidir;*

*– əmək uşaq şəxsiyyətinin formalaşmasında zəmin, bünövrə, özül rolunu oynamalıdır.*

## ƏDƏBİYYAT

1. Tağı Şahbazi Simurğ. İbtidai məktəbin vəzifələri. “Maarif və mədəniyyət” jurnalı, №1-2, 1923.

2. Məktəbəqədər pedaqogika tarixi. Bakı, APİ, 1967, 268 səh.

3. Dadaşzadə D. Uşaqların kənd təsərrüfatı əməyi ilə tanış edilməsi. “İbtidai məktəb və məktəbəqədər tərbiyə” jurnalı, №1, 1984.

4. Əliyev R. Uşaqların şəxsiyyətinin formalaşmasında oyunun rolu. “İbtidai məktəb və məktəbəqədər tərbiyə” jurnalı, №3, 1989.

P.Jafarova

### Ways of stimulation of the role of profession and interest in the profession in the literary legacy of Taghi Shahbazi Simurgh

**Abstract**

The article discusses ways to stimulate the role of profession and interest in the work of Tagi Shahbazi Simurg, a victim of repression. It is noted that play is one of the most important ways of educating children in the form of active activity. Labor education should be aimed at helping to develop diligence, respect for labor, workers, and ideas about professions. In addition to hard work, should instill in children such moral qualities as tolerance, courage, camaraderie, friendship, caring, kindness, zeal and patriotism. In this case, in secondary schools, the teacher should give priority to learning motives during labor training.

П.Джафарова

### Пути стимулирования роли профессии и интереса к профессии в творчестве Таги Шахбази Симурга

**Аннотация**

В статье рассматриваются пути стимулирования роли профессии и интереса к творчеству Таги Шахбази Симурга, пострадавшего от репрессий. Отмечается, что игра является одним из важнейших способов воспитания детей в форме активной деятельности. Трудовое воспитание должно быть направлено на воспитание трудолюбия, уважения к труду, работникам, представления о профессиях. Помимо тяжелого труда, должен прививать детям такие нравственные качества, как терпимость, мужество, товарищество, дружба, забота, доброта, усердие и патриотизм. При этом в общеобразовательных школах учитель должен отдавать приоритет мотивам обучения при трудовом обучении.